**KOS Müştərilərə Dəstək üzrə Kiçik Mütəxəssis**

## İşiniz nədən ibarətdir?

- KOS (kiçik və orta sahibkarlar) müştərilərdən daxil olan zənglərin vaxtında və keyfiyyətli cavablandırması;
- Daxil olan zənglər və sorğulara əsasən Bankda istifadə olunan müxtəlif proqram təminatları vasitəsilə aparılan bütün əməliyyatların Bankın "komplayns" tələblərinə uyğun icra edilməsi;
- Hər hansı mümkün olan saxtakarlıq əməliyyatlarının aşkarlanması və aidiyyəti struktur bölmələrə yönləndirilməsi;
- Şikayət və təkliflər ilə iş: Banka hər hansı şikayət / təklif və ya texniki çətinlik ilə bağlı müraciət daxil olarsa, mütləq olaraq qeydiyyatının düzgün kateqoriyalarda aparılmasına, qeydiyyatının "açıq" statusunda olarkən izlənilməsinə və müştərilərə vaxtında cavabın təqdim edilməsinə nəzarət edilməsi;
- Videozəng prosesi zamanı, online bank əməliyyatları (cari hesabın açılması və s.), əmək haqqı kartları və digər məhsul / xidmətlər ilə bağlı müştərilərə dəstəyin göstərilməsi;
- Hesab üzrə qalıq, sərəncam və ödəniş statusları üzrə araşdırmaların aparılması, məktubların yazılması və müştərilərin məlumatlandırılması.

## Sizdən nə tələb olunur?

- **Təhsil:** Maliyyə, İqtisadiyyat və ya digər uyğun ixtisas üzrə Bakalavr təhsili;
- **Tələb olunan iş təcrübəsi:** müvafiq sahə üzrə minimum 1 (bir) il;
- **Xarici dillər:** Azərbaycan (ana dili), Rus (yüksək səviyyədə) və İngilis (orta səviyyədə);
- **Kompüter bilikləri:** Microsoft Office (MS Word, MS Excel).

Maraqlanan namizədlərdən CV-lərini **KOS Müştərilərə Dəstək üzrə Kiçik Mütəxəssis** başlığı altında 20 İyul tarixinə qədər Chinara.Taghiyeva@pashabank.az email ünvanına göndərmələri xahiş edilir.